100 nəfərdən artıq məktəbli gimnastın qatıldığı tədbirdə müxtəlif proqramlarla nümunəvi çıxışlar nümayiş olunub.

Tədbirdə Təhsil Nazirliyinin, Gimnastika Federasiyası nın və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, Təhsil Nazirliyi “Bakı 2015” I Avropa Oyunlarının proqramına daxil olan 14 idman növü üzrə (velosiped, voleybol, stolüstü tennis, taekvando, karate, güləş, çimərlik futbolu, cüdo, boks, basketbol, badminton, atletika, akrobatika və bədii gimnastika) məktəblilər arasında təşkil etdiyi zona yarışlarını davam etdirir.

I Avropa Oyunları ərəfəsində ölkəmizdə aparılan təşviqat kampaniyası çərçivəsində təşkil olunan məktəblilərarası zona yarışları mayın sonunadək davam edəcək. Yarışlarda 6 min nəfərdən çox şagirdin iştirakı nəzərdə tutulub.